

Nəzakət

## ŞƏHİDİM

Yaman narahatdır ruhun, bilirəm,
Durur qisas günün hələ, şəhidim.
Torpaq qan içində, düşmən əlində,
Dağın göz dağıdır elə, şəhidim.

Yalana dönübdü mənim gerçəyim,
Solub düymə-düymə gülüm-çiçəyim.
Analar açmayıb qara ləçəyin,
Göz yaşı dönübdü selə, şəhidim.

Yolu yox Vətənə aparan yolun,
Şikəstəm, sınıbdır qanadım-qolum.
Didərgin ruhunun qurbanı olum,
Məni də kəfənə bələ, şəhidim.

Sənə "söz vermək"dən, sözüm qaralıb,
Xəcalət çəkməkdən üzüm qaralıb.
Qisas qiyamətə dirənib qalıb,
Ağırdı çiynimdə şələ, şəhidim.

Nə qədər ağrın var, ağrınla varam,
Yaramdı köksünün altdakı yaran.
Sən göydən enəsən, mən burdan duram,
Gələ zəfər günü, gələ, şəhidim.

## YAĞIŞ

**Təbiətin göz yaşı, yoxsa Tanrı alqışı**

Yağ, ey yağış, aramla yağ,
Dinclik gətir gəlişinlə.
Çöl-çəmənin üzü gülsün
gülüşünlə.
Səndən umsun təmizliyi,
pak saflığı
hər daş-qaya.
Kainatdan əskik etmə
Öz nurunu damla-damla.
Bəhanə ol sevənlərə.
Səndən qaçıb çətir altda
gizlənsinlər.
Sevgi dolu pıçıltında
gilə-gilə ərisinlər.
Yağ, ey yağış, layla kimi,
şirin-şirin yuxuları
bitirmə sən.
Selə dönüb fəlakəti
gətirmə sən.
Aramla yağ, qoy nazlansın
yasəmənlər,
Gəlişinlə bayram etsin
qoy süsənlər.
Səndən alsın ilhamını
Şəlalələr, dağ çayları.
Qovuşmağa tələssinlər
Dənizlərə ümman-ümman.
Elə yağ ki, toqquşdurub,
dalaşdırma buludları.
Qoy göy üzü inciməsin
hay-haraydan.
Yağ, ey yağış, aramla yağ.
Mərhəmətlə ovundur sən
insanları.
Qoy yer üzün islatmasın
göz yaşları.

## QOXLA, SEV

Göz oxşayan çiçək nə çox çəməndə,
Sən dərdiyin çiçəyini qoxla, sev.
Gül ətriylə düşməyəsən kəməndə,
Üzdüyünü tər çiçək tək qoxla, sev.

Bu bahardı - çiçəyi bol, gülü bol,
Sən də baxıb öz gülünə heyran ol.
Özgə gülü sonda olar tikan-kol,
Sənə qalar öz çiçəyin, qoxla, sev.

Kim deyir ki, gülün ömrü az olar?
Gül ömrünü gülü üzənlər yazar.
Üzdüyündən olmayasan sən bezar,
Cənnətindi bu gül sənin, qoxla sev.

Nəzakətin düzdür sözü, ilqarı,
Bağçasını xəzan edib rüzgarı.
Hər aşiqin yarı olsun gülzarı,
Bağrına bas gül yarını, qoxla, sev.

## QIZLAR

Əlçatmaz ən uca qarlı zirvənin
Bəmbəyaz, ağappaq qarıdı qızlar.
Bir nəslin qeyrəti, başının tacı,
Namusu, isməti, arıdı qızlar.

Doğular bu yurda nur, işıq kimi,
Bir halal ocağa yaraşıq kimi,
Küsdürsən, ağlayar o, uşaq kimi,
Çeşmədən, bulaqdan durudu qızlar.

Gülüşü çağlayar gül dodağında,
Bir zərif qönçədi gül budağında
Uyuyan Günəşdi öz otağında,
Hansı bəxtəvərin yarıdı qızlar?

Sanmayın köçəri bir quşa bənzər,
Bir könlü isidən alqışa bənzər,
O, bahar ünvanlı yağışa bənzər,
Köçdüyü ocağın nurudu qızlar.

Bu gün nazlı gəlin, sabah bir ana,
Şirin layla deyər öz balasına,
Necə yaraşırlar Azərbaycana,
Xalqımın sərvəti, varıdı qızlar.

## DÜNYA

Nə deyim mən sənə, amansız dünya,
Neynirəm seçilmir qaradan ağım.
Həsrətin əlində ruhum göynəyir,
Tək sənə yetməyir hayım, sorağım.

Yormusan, yamanca yormusan məni,
Sən demə, bitməzmiş zülmün-zillətin.
Arzumun dalınca qaldı gözlərim,
Yolların daşlıdır, yüyürmək çətin.

Sən elə beləsən başdan, binədən,
Bilirəm, heç kəsə qalan deyilsən.
Sonuma gedirəm hey addım-addım,
Bilirəm, mənim də olan deyilsən.

Yaş olub gözündən düşənə kimi
Əlindən nə çəkdim, biləydin barı.
Bir gün üz döndərib, üzündən sənin
Getsəm - günahımı siləydin barı.

## SORAQ ELƏ

Nəyi harda itirdin, heç özün də bilmədin,
İndi düşüb yollara, axtar itirdiyini.
Aç, ara bilirsənsə
Özün öz əllərinlə vurduğun bu düyünü.
Yolları çıraq elə, illərə soraq elə.
Gördüm deyən olmasa, göylərə soraq elə.
Axtar, tapa bilməsən, ümidə soraq elə.
Soraq et yaddaşının vicdan məhkəməsinə.
Hakimi də özün ol, müttəhimi də özün.
Həqiqətin gözünə barı düz baxsın gözün.
Dilinə yalvar-yapış, soruşsun ürəyindən:
"Necə itirdim görən?"
Ümiddən bir də soruş, tapa bilərəm, denən?!
Qaranlıqda bir ümid işığı var izində.
Axı, niyə itirdin?
Axı, necə itirdin?
Bir də soruş özündən.